www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-14 (1840) 31 avqust 2026-cı il



## Azərbaycan Tibb Universiteti insanlığa xidmət edən nəcib peşənin daşıyıcılarını yetişdirir

Rektor, professor Gəray Gəraybəyli tələbə adını qazanmış gəncləri və onların valideynlərini təbrik edib

səh. 2

### Laçında səyyar stomatoloji aksiya keçirilib

səh. 2

### Türkiyəli tələbələr ATU-da təcrübə proqramını başa vurub

səh. 2

### Yüksək riskli xəstə üzərində mürəkkəb əməliyyat icra olunub

səh.3



### Həm öyrədir, həm də müalicə edirlər

Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikası ölkəmizdə stomatoloji təhsilin əsas praktik mərkəzlərindən biridir

səh. 5

### Hamiləlikdə autoimmun tiroidit: risklər, müalicə və həkim tövsiyəsi

səh. 4

### Fəlakət təbabəti: müasir dövrün çağırışları və Azərbaycanın elmi yanaşması

səh. 7



### Bir gimnaziyanın 22 şagirdi ATU-nu seçib

11a sinfinin 14 məzunu, 700 ballıq nəticə sahibi və eyni sinifdən bacı-qardaş universitetimizdə təhsil alacaq

səh. 2

# Azərbaycan Tibb Universiteti insanlığa xidmət edən nəcib peşənin daşıyıcılarını yetişdirir

## Rektor, professor Gəray Gəraybəyli tələbə adını qazanmış gəncləri və onların valideynlərini təbrik edib



Təbrikdə deyilir: "Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanan dəyərli gənclərimiz! Hər birinizi bu xoş gün münasibətilə təbrik edirəm!

Tələbə adı ilə qarşınızda zəngin bilik, böyük imkanlar, şərəfli və məsuliyyətli bir yol açılır. Bu gün siz sadəcə universitetə qəbul olmursunuz. Siz insan həyatına xidmət edən, yüksək bilik, böyük məsuliyyət və ali mənəviyyat tələb edən bir peşənin yoluna qədəm qoyursunuz.

Azərbaycan Tibb Universiteti yalnız yüksək səviyyəli tibbi təhsil verən ali məktəb deyil, həm də xalqımıza və insanlığa xidmət edən nəcib bir peşənin daşıyıcılarını yetişdirən böyük bir elm və təhsil ocağıdır.

İnanıram ki, universitetimizin tələbəsi olmaqla siz qarşıdakı illərdə zəngin bilik, peşəkar bacarıqlar qazanacaqsınız. Əzminiz, zəhmətiniz və peşənizə sədaqətiniz isə sizi insanların etibar etdiyi, Azərbaycan səhiyyəsinə dəyər qatan ləyaqətli həkimlərə çevirəcək. Unutmayın ki, yaxşı həkim olmağın yolu dərin biliklərlə yanaşı, həm də insan həyatına böyük məsuliyyət və mərhəmətlə yanaşmaqdan keçir!

**Dəyərli valideynlər!**

Bu sevinc həm də sizlərin - övladının təhsili yolunda hər zaman yanında olan, dəstək göstərən və uğurlarına ürəkdən inanan bütün valideynlərin böyük zəhmətinin bəhrəsidir. Bu qürürverici nailiyyətin sevincini sizinlə də bölüşür, övladlarınızın bu möhtəşəm uğuru münasibətilə hər birinizi təbrik edirəm!

Gələcəyin həkimləri, Azərbaycan Tibb Universitetinə xoş gəlmisiniz! Yolunuz açıq, uğurlarınız davamlı olsun!"

# Bir gimnaziyanın 22 şagirdi ATU-nu seçib

## 11-A sinfinin 14 məzunu, 700 ballıq nəticə sahibi və eyni sinifdən bacı-qardaş universitetimizdə təhsil alacaq



**2026/27-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə baş tutan qəbulda Azərbaycan Tibb Universitetini təkcə bir məktəbdən - Sumqayıt şəhər Təbiət Elmləri Təmayüllü Gimnaziyasının 11a və 11c siniflərindən ümumilikdə 22 şagird seçib.**

Gimnaziyanın 11a sinfinin şagirdləri 2025/2026-cı tədris ili üzrə ali məktəblərə qəbul imtahanlarında əldə etdikləri yüksək nəticələrlə diqqət çəkiblər. Sinfin 17 məzunu 500-dən, 13 məzunu isə 600-dən yuxarı bal toplayıb. Məzunlardan 13-ü Azərbaycan Tibb Universitetinin (ATU) "Tibb" ixtisasına üstünlük verib. ATU-nu seçənlər arasında sinif üzrə ən yüksək nəticəni Tağızadə Samir Hikmət oğlu əldə edib. O, qəbul imtahanında maksimal 700 bal toplayıb.

Yüksək nəticə göstərən digər məzunlar arasında İnci Rəsul qızı Mursaquliyeva (690,2), Aysel Elnur qızı Fərhadova (682,6), Hüseyn Samir oğlu Nağıyev (682), Amin Pərviz oğlu Tahirzadə (679,1) və Rüqiyyəxanım Fərid qızı Səfizadə (675,4) var. Rəsul Qəfər oğlu Ömürzadə isə 506,3 balla Hərbi tibb fakültəsinə daxil olub.

Daha bir maraqlı məqam odur ki, ATU-nun tələbəsi adını qazananlar arasında 11a sinfində təhsil almış bacı-qardaş da var. 690,2 bal toplayan İnci Mursaquliyeva və 667 bal yığan Həmid Mursaquliyev "Tibb" ixtisası üzrə təhsil alacaqlar.

Ümumilikdə, gimnaziyanın yalnız iki sinfindən 22 şagirdin ATU-ya qəbul olması, 11a sinfindən 13 məzunun 600-dən yuxarı bal toplaması, maksimal 700 balın əldə edilməsi və eyni sinifdən bacı-qardaşın tibb təhsilinə qəbul olunması hər il ali məktəblərə qəbul nəticələrinə görə ön sıralarda qərarlaşan Sumqayıt təhsilinin uğurlarını və miqyasını bir daha nümayiş etdirir.

# Komandamız "2026-Enactus" Milli Yarışının final mərhələsinə yüksəlib

**Universitetimizin komandası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının dəstəyi, "Enactus Azərbaycan"ın təşkilatçılığı ilə keçirilən "2026-Enactus Azərbaycan Milli Yarışı"nın final mərhələsinə yüksəlib.**

Yarış çərçivəsində ölkənin müxtəlif universitetlərini təmsil edən "Enactus" komandaları sosial və sahibkarlıq yönümlü layihələrini təqdim edərək öz bacarıqlarını nümayiş etdiriblər. Qeyd edək ki, Milli Yarışın 21 avqust tarixində baş tutan ilk günü - yarımfinal mərhələsi onlayn formatda, 28 avqust tarixində gerçəkləşdirilən final mərhələsi isə canlı formatda Bakı Konqres Mərkəzində keçirilib.

Universiteti təmsil edən "Enactus ATU" komandası ölkə üzrə 19 ali təhsil müəssisənin qatıldığı Milli Yarışın gərgin keçən birinci mərhələsində yüksək nəticə göstərərək, ən güclü 6 universitet sırasına daxil olmaqla final mərhələsinə vəsiqə qazanıb. Bu mərhələdə komandanın prezidenti, II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Əsmər Astanlı və "Biznes və maliyyə" komandasının üzvü, Hərbi tibb fakültəsinin IV kurs tələbəsi Rəşid Qasımlı nümayəndə heyəti və ölkənin aparıcı iş adamlarından ibarət münsiflər heyəti qarşısında geniş təqdimatla çıxış ediblər. Onlar komandanın hazırladığı innovativ layihəni, onun biznes modelini və sosial təsir imkanlarını yüksək peşəkarlıqla diqqətə çatdırıblar.



Ümumilikdə komandanın digər üzvləri - "Tədqiqat" komandasından Zeynəb Binyətova, Zəhra Qafarzadə, "İnsan resursları" komandasından Aybə Müzəffərzadə, "Maliyyə" komandasından Xədicə Mikayılzadə, Nəzrin Məmmədova, Rəşid Qasımlı da fəallıq nümayiş etdiriblər.

# Türkiyəli tələbələr ATU-da təcrübə proqramını başa vurub



**Türkiyənin nüfuzlu ali təhsil müəssisələrindən biri olan Üsküdar Universitetinin bir qrup tələbəsi universitetimizdə iki aylıq klinik təcrübə proqramını uğurla başa vurub.**

Beynəlxalq əməkdaşlıq çərçivəsində təşkil olunan proqram tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirməsinə, müasir klinik yanaşmalarla tanış olmasına və xəstələrlə iş prosesini yaxından müşahidə etməsinə geniş imkan yaradıb.

İki ay ərzində Üsküdar Universitetinin 8 tələbəsi ATU-nun I Daxili xəstəliklər, I Cərrahi xəstəliklər və Ağciyər xəstəlikləri kafedralarında klinik təcrübədə iştirak edib. Təcrübə müddətində tələbələr həkimlərin gündəlik fəaliyyətini izləyib, xəstələrin müayinəsi və müalicəsinin təşkili ilə bağlı praktik bilik və bacarıqlarını inkişaf etdiriblər.

**Səhiyyə Nazirliyi işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində əhalinin sağlamlığının qorunması və keyfiyyətli tibbi xidmətlərə əlçatanlığın artırılması istiqamətində səyyar tibbi aksiyaları davam etdirir. Növbəti belə aksiya Laçın Rayon Mərkəzi Xəstəxanasında təşkil olunub.**

# Laçında səyyar stomatoloji aksiya keçirilib

## Tədris Stomatoloji Klinikanın briqadası tərəfindən sakinlərə tibbi xidmət göstərilib



Səhiyyə Nazirliyinin təşkilatçılığı və Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasının həkim briqadasının iştirakı ilə keçirilən aksiya zamanı rayon sakinləri, eləcə də "Böyük Qayıdış" proqramı çərçivəsində bölgədə çalışan mütəxəssislər ödənişsiz stomatoloji müayinələrdən keçirilib, onlara müvafiq konsultativ tibbi xidmət göstərilib.

Aksiya çərçivəsində müasir tibbi texnologiyalardan biri olan BPR Swiss SMART-PORT portativ stomatoloji qurğusundan istifadə edilib. Tam avtonom iş rejiminə malik olan bu innovativ sistem səyyar şəraitdə yüksək keyfiyyətli stomatoloji xidmətlərin göstərilməsinə imkan yaradır. Qurğunun qısa müddətdə quraşdırılması, fasiləsiz işləməsi və mikromotor, ultrasəs skaler, üçfunksiyalı spris kimi avadanlıqlarla təchiz olunması müalicə prosesinin operativ və rahat təşkilinə şərait yaradıb.

Laçın sakinləri portativ stomatoloji qurğunun imkanlarından istifadə etməklə yerində tam stomatoloji müayinə və müalicə xidmətləri alıblar. Bu yanaşma həm tibbi xidmətlərə əlçatanlığı artırıb, həm də vətəndaşların əlavə vaxt sərf etmədən müayinədən keçməsinə imkan verib.

Aksiyanın əsas məqsədi ağız və diş sağlamlığının qiymətləndirilməsi, stomatoloji xəstəliklərin erkən aşkarlanması, profilaktik tədbirlərin həyata keçirilməsi və əhali arasında sağlam həyat tərzinin təşviqindən ibarət olub.

Tədris Stomatoloji Klinikanın direktoru İmran Ağayevin rəhbərliyi ilə stomatoloq-terapevt, ortodont, ortoped, cərrah və uşaq stomatoloqlarından ibarət həkim briqadası tərəfindən ətraflı müayinələr aparılıb.

Ümumilikdə, 90-a yaxın vətəndaş tibbi müayinədən keçirilib, ehtiyac olan şəxslərə müalicə prosedurları icra olunub, profilaktik tövsiyələr və fərdi konsultasiyalar verilib.

Səyyar tibbi aksiyalar işğaldan azad edilmiş ərazilərdə əhalinin keyfiyyətli səhiyyə xidmətlərinə çıxışının genişləndirilməsinə, erkən diaqnostikanın təşviqinə və "Böyük Qayıdış" proqramı çərçivəsində bölgələrdə sağlam həyat mühitinin formalaşdırılmasına mühüm töhfə verir.

# II sinif skelet anomaliyası korreksiya edilib

**Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov tərəfindən II sinif skelet anomaliyasının korreksiyası məqsədilə xəstə üzərində ortognatik cərrahi əməliyyat icra olunub.**



Professorun sözlərinə görə, ortognatik cərrahiyyə dişləmənin, eləcə də çənə sümüklərinin düzgün anatomik mövqeyinin bərpasına yönəlmiş cərrahi müalicə üsuludur. Bu əməliyyatlar çənə sümüklərinin inkişafında və qarşılıqlı münasibətində yaranmış skelet anomaliyalarının korreksiyasına imkan verir.
Əməliyyat icra olunan xəstədə II sinif skelet anomaliyası müşahidə olunub. Bu patologiya zamanı üst çənənin alt çənəyə nisbətən ön mövqedə olması və ya alt çənənin inkişafının geridə qalması nəticəsində çənələr arasında uyğunsuzluq yaranır. Xəstədə də əsas problem alt çənənin geridə yerləşməsi ilə xarakterizə olunub. Çənələr arasındakı bu uyğunsuzluq həm funksional, həm də estetik problemlərə səbəb ola bilər.
Mütəxəssisin bildirdiyinə görə, xəstənin ortognatik cərrahiyyəyə hazırlıq mərhələsi təxminən bir il davam edib. Bu müddət ərzində ortodontik müalicə aparılıb, dişlərin və diş sıralarının əməliyyata uyğun vəziyyətə gətirilməsi, həmçinin mövcud patologiyaların aradan qaldırılması istiqamətində mərhələli hazırlıq həyata keçirilib.
Ortognatik müalicədə multidissiplinar yanaşma xüsusi əhəmiyyət daşıyır. Müalicənin uğurlu nəticəsi üçün ortodont və ağız-üz çənə cərrahının birgə fəaliyyəti vacibdir.

# Yüksək riskli xəstə üzərində mürəkkəb əməliyyat icra olunub

**Tədris Cərrahiyyə Klinikasının Ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri, dosent Fərman Həsənovun rəhbərliyi ilə üz-çənə və kəllə sümüklərinin çoxsaylı ağır travması diaqnozu qoyulan yüksək riskli xəstə üzərində mürəkkəb rekonstruktiv əməliyyat icra olunub.**
Həkimin sözlərinə görə, xəstə təxminən 6 metr hündürlükdən yıxılaraq sifət və alın nahiyəsindən ağır travma alıb. İlkin mərhələdə vəziyyətinin ağırlığı nəzərə alınaraq ixtisaslaşmış neyrocərrahi tibb müəssisəsində müalicə olunub, daha sonra isə üz-çənə nahiyəsindəki mürəkkəb sınıqların cərrahi müalicəsi məqsədilə Tədris Cərrahiyyə Klinikasına köçürülüb.
Əməliyyata hazırlıq zamanı aparılan müayinələr xəstədə yanaşı pulmonoloji problemlərin və hematoloji pozğunluqların olduğunu üzə çıxarıb. Məlum olub ki, pasiyent əvvəllər də hematoloji xəstəliklə əlaqədar ixtisaslaşmış tibb müəssisəsində müalicə alıb. Anestezioloji qiymətləndirmə zamanı qan göstəricilərinin əməliyyat üçün risk yaratdığı müəyyən edildiyindən, cərrahi müdaxilə təxirə salınıb və xəstə pulmonoloq və hematoloqun nəzarəti altında müalicəsini davam etdirib.
Aparılan kompleks müalicədən sonra xəstənin vəziyyəti yenidən qiymətləndirilərək yüksək risk altında əməliyyata götürülməsi qərara alınıb.
Müayinələr zamanı xəstədə alın sümüyünün, kəllə tağının, yuxarı çənənin Le Fort tipli sınığı, ziqomatik kompleksin (alma sümüyü ətrafı), haymor (maksilyar) ciblərinin ön divarının, burun sümüklərinin çoxsaylı sınıqları aşkarlanıb. Eyni zamanda, sol gözdə tam görmə itkisi qeydə alınıb. Kompüter tomoqrafiyası və maqnit-rezonans tomoqrafiyasının nəticələri göstərib ki, görmə itkisi sınıq fraqmentlərinin optik siniri sıxması nəticəsində yaranıb.
Dosent F.Həsənov bildirib ki, klinikanın təcrübəsində optik sinirin travmatik sıxılması nəticəsində görmə pozğunluğu olan xəstələrdə uğurlu nəticələr əldə edilib.



**Bu gün dünyada milyonlarla insanı narahat edən görmə problemlərindən biri də miopiyadır. Yaxın görmə, uzağı isə bulanıq görmə ilə xarakterizə olunan bu vəziyyət, xüsusilə son illərdə gənclər arasında geniş yayılıb.**

# Miopiyanın müalicəsində cərrahi yanaşmalar



Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov bildirir ki, müasir tibb bu problemin həllində bir sıra effektiv cərrahi metodlar təklif edir: "Miopiya gözün optik sisteminin uzunluğu ilə refraksiya gücü arasındakı uyğunsuzluqdan yaranır. Bunun nəticəsində daxil olan işıq şüaları torlu qişanın üzərində deyil, ondan əvvəl fokuslanır və uzaqdakı obyektlər bulanıq görünür".
Şöbə müdiri vurğulayır ki, hazırda ən çox müraciət olunan üsullardan biri LASIK (Laser-Assisted In Situ Keratomileusis) əməliyyatıdır. Bu zaman lazer vasitəsilə buynuz qişanın forması dəyişdirilərək, işıq şüalarının düzgün fokuslanması təmin edilir. Prosedur ağrısız, sürətli və reabilitasiya dövrü qısa olduğu üçün pasiyentlər arasında populyardır. Yüksək dərəcəli miopiya hallarında isə fakik intraokulyar linzaların (implant edilən linzalar) tətbiqi daha münasib seçim ola bilər. Bu üsulda gözün öz linzası saxlanılmaqla, əlavə bir linza gözün daxilinə yerləşdirilir. "Hər pasiyentin göz quruluşu fərqlidir, ona görə də əməliyyatdan əvvəl ətraflı diaqnostik müayinə aparılması vacibdir. Buynuz qişanın qalınlığı, göz təzyiqi və refraksiya dərəcəsi kimi göstəricilər əsasında ən uyğun metod seçilir" – mütəxəssis bildirib.

# Körpə qidalanmasında ilk 2 il: immunitetin təməli, tolerantlığın başlanğıcı

**Bu gün biz körpə qidalanmasında yalnız qida maddələrinin qəbulunu deyil, eyni zamanda immun sistemin formalaşması və allergenlərə qarşı tolerantlığın qazanılmasında sübuta əsaslanan klinik rəhbərlikləri nəzərdən keçirərək, ilk olaraq Beynəlxalq Ana Südü Akademiyasının (ABM) rəsmi mövqe bəyanatını və 12-24 aylıq dövrdə əmizdirmənin elmi əsaslarını təhlil etməliyik. Daha sonra isə əlavə qidaya keçiddə "İmmunoloji Tolerantlıq Pəncərəsi" adlandırdığımız 4-6 aylıq kritik dövrün mexanizmləri haqqında danışmalıyıq.**
İlk növbədə ABM Mövqe Bəyanatının nə olduğuna aydınlıq gətirək. ABM (Academy of Breastfeeding Medicine, Ana südü Akademiyası) — beynəlxalq ana südü və tibb mütəxəssislərinin birləşdiyi, tamamilə sübutlu təbabətə əsaslanan və uzunmüddətli əmizdirməni tənzimləyən qlobal rəsmi klinik sənədlər hazırlayan bir qurumdur. Bu sənədin əsas prinsipləri iki mühüm sütuna söykənir:
**Bioloji normallıq:** Cəmiyyətdə, bəzən təəssüf ki, hətta tibb işçiləri arasında da 1 yaşından sonra əmizdirməyə qeyri-adi və ya faydasız bir proses kimi baxmaq meyli var. Lakin ABM təsdiqləyir ki, 12-24 ay arasında əmizdirmə insan üçün bioloji olaraq tam normal və təbii fizioloji prosesdir.
**Sübutlu klinik dəstək:** Protokol pediatrları, neonatoloqları, ginekoloqları və terapevtləri analara süni təzyiq göstərməməyə, əksinə onları dəstəkləməyə səsləyir. Əmizdirmənin dayandırılması kənar təsirlərlə deyil, yalnız ana və uşağın fərdi istəyinə əsasən baş verməlidir.
Bəs 2-ci ildə ana südünün qida



dəyəri azalırmı? Elmi faktlar bunun tam əksini deyir. Uşağın ikinci ilində də ana südü onun günlük enerji tələbatının əhəmiyyətli hissəsini - 38%-dən 45%-ə qədərini qarşılayır. Bu dövrdə də süd zəngin protein, keyfiyyətli yağ turşuları, kalsium, vitamin A və digər mikronutriyentlərin unikal mənbəyi olaraq qalır.
Qlobal strategiyalara baxdıqda, ABM-in bu tövsiyələri Ümumdünya Səhiyyə Təşkilatı (WHO), UNICEF, Amerika Pediatriya Akademiyası (AAP) və Amerika Ailə Həkimləri Akademiyasının (AAFP) rəsmi mövqeyi ilə tam uzlaşır. Yəni ilk 6 ay eksklüziv ana südü, 6 aydan sonra yaşa uyğun əlavə qidalar və əmizdirmənin ən azı 2 yaşa qədər davam etdirilməsi qızıl standartdır. 6 aydan əvvəl isə hər hansı bir allergiya profilaktikası və ya dəmir statusunu yaxşılaşdırmaq bəhanəsi ilə əlavə qidaların verilməsi elmi cəhətdən əsaslandırılmır.
Uzunmüddətli əmizdirmənin uşaq orqanizminə təsiri çoxşaxəlidir və biz bunu üç əsas istiqamətdə qruplaşdırırıq:
**İmmunoloji qorunma:** İkinci ildə də südün tərkibindəki immunqlobulinlər, laktoferrin və bioaktiv komponentlər körpəni respirator infeksiyalardan, orta qulaq iltihabından (otit) və kəskin ishal riskindən etibarlı şəkildə qorumağa davam edir.
Neyro-koqnitiv inkişaf: Klinik tədqiqatlar aşkar edib ki, 12 aydan daha uzun müddət əmizdirilən uşaqların intellektual testlərdə koqnitiv və emosional inkişaf göstəriciləri daha yüksək olur.
Xroniki risklərin azalması: Bu, gələcək nəsillərin sağlamlığı üçün metabolik bir investisiyadır. Uzunmüddətli əmizdirmə gələcəkdə uşaqda artıq çəki (piylənmə), tip 2 diabet və digər metabolik pozulmaların yaranma ehtimalını minimuma endirir.
Pediatr və neonatoloq olaraq bizim valideynlərlə münasibətimiz necə qurulmalıdır? Sənəd bizə 4 mühüm taktika təklif edir:
**Doğru dialoq:** Valideynlərlə qınayıcı, təzyiqedici deyil, dəstəkləyici dildən istifadə etməliyik.
Fərdi qiymətləndirmə: Ananın iş fəaliyyəti, sosial, fiziki və psixoloji vəziyyəti mütləq nəzərə alınmalı, əmizdirmə ssenarisi ailəyə uyğun tənzimlənməlidir.
Maneələri aşma: Süd vəzi iltihabları (mastit) və ya qidalanma çətinlikləri yarandıqda əmizdirməni dayandırmaq yox, peşəkar laktasiya dəstəyi ilə problemi həll etmək lazımdır.
**Süddən ayırma:** Əmizdirmə birtərəfli və qəfil qərarla deyil, yalnız ana və uşağın qarşılıqlı hazırlığı əsasında, təbii və tədricən bitməlidir.
Tibdə uzun illər belə bir yanaşma var idi: allergiya riskini azaltmaq üçün allergen qidaları uşağa gec vermək lazımdır. Lakin müasir immunologiya sübut edir ki, uşağın inkişafında 4-cü aydan başlayıb 6-cı aya qədər davam edən xüsusi bir "İmmunoloji tolerantlıq pəncərəsi" mövcuddur.
**Bu dövrün xüsusiyyətləri aşağıdakılardır:**
Bağırsaq toxunulmazlığının yetişməsi: Məhz bu pəncərədə bağırsaq epitelinin keçiriciliyi, mukozal İgA istehsalı və mikrobiota tərkibi elə bir vəziyyətdə olur ki, daxil olan allergenlərə qarşı immun sistemində requlyator T-limfositlər (Treg) cavabı, yeni tolerantlıq formalaşır.
Sensibilizasiya və tolerantlıq: Əgər biz allergenik qidaları bu pəncərədə, xüsusən də ana südü fonunda mütəmadi olaraq uşağa təqdim etsək, immun sistemi onu "düşmən" kimi yox, "dost" kimi qəbul edir (oral tolerantlıq).
**Gecikdirmənin riski:** Köhnə yanaşmanın əksinə, allergen qidaların 6 aydan sonra uzun müddət gecikdirilməsi allergiya riskini azaltmır, əksinə, bəzi genişmiqyaslı tədqiqatlarda riskin daha da artdığı ortaya çıxıb.
Yekun olaraq, ana südü ilə qidalandırma əlavə qidalarla yanaşı, ən azı 2 il davam etdirilməlidir (ABM). 4-6 aylıq "immunoloji tolerantlıq pəncərəsi" isə allergenlərin təqdimi üçün ən əlverişli dövr hesab edilir.

**Gültəkin Novruzova**
*I Uşaq xəstəlikləri kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru*

# Ürək-damar xəstəlikləri cavanlaşır: risk faktorları, profilaktika və düzgün müalicənin əhəmiyyəti

**Son illər bütün dünyada olduğu kimi, Azərbaycanda da ürək-damar xəstəliklərinin daha gənc yaşlarda müşahidə olunması narahatlıq doğuran tendensiyaya çevrilib. Vaxtilə əsasən yaşlı nəslin problemi hesab edilən arterial hipertenziya, ürəyin işemik xəstəliyi, ürək ritm pozğunluqları və hətta miokard infarktı artıq orta və gənc yaşlı insanlar arasında da qeydə alınır.**



Azərbaycan Tibb Universitetinin I Daxili xəstəliklər kafedrasının professoru, kardioloq Sona Qəhrəmanova ürək-damar xəstəliklərinin yaranma səbəbləri, müalicə prinsipləri və profilaktik tədbirlər barədə fikirlərini bölüşüb. Professorun sözlərinə görə, ürək-damar xəstəliklərinin cavanlaşmasının əsas səbəbləri arasında həyat tərzinin dəyişməsi, stress, fiziki passivlik, qeyri-sağlam qidalanma, artıq çəki, siqaret istifadəsi və irsi meyillilik xüsusi yer tutur. Bu amillər qan təzyiqinin yüksəlməsinə, damarların elastikliyinin azalmasına və ürək-damar sistemində erkən dəyişikliklərin yaranmasına səbəb olur.

Cəmiyyətdə geniş yayılmış fikirlərdən biri də təzyiq və ürək-damar xəstəliklərinin müalicəsində istifadə olunan dərmanların uzun müddət qəbul edildikdə orqanizmdə asılılıq və ya "öyrəşmə" yaratmasıdır.Kardioloq bildirir ki, bu yanaşma əksər hallarda həqiqəti əks etdirmir: "Hipertoniya və ürəyin işemik xəstəliyinin müalicəsində istifadə olunan preparatlar, o cümlədən angiotenzinçevirici ferment inhibitorları, angiotenzin reseptor blokerləri, statinlər və antiaqreqantlar uzunmüddətli istifadə üçün nəzərdə tutulub. Bu preparatların təsir mexanizmi elədir ki, onlar adətən öyrəşmə yaratmır".

Kardioloq qeyd edib ki, bəzi preparatlar, xüsusilə nitrat qrupu dərmanlar uzun müddət fasiləsiz qəbul edildikdə, təsirinin zəifləməsi müşahidə oluna bilər: "Bu preparatlar reseptor səviyyəsində təsir göstərir. Fasiləsiz istifadə zamanı reseptorların həssaslığı azalır və dərmanın effekti zəifləyir. Buna görə də belə hallarda həkim nəzarəti altında müəyyən fasilələr verilməlidir". Bununla belə, hər bir dərmanın təsir mexanizmi fərqlidir və bəzi preparatlar müəyyən müddətdən sonra həkim nəzarəti altında yenidən qiymətləndirilməlidir.

Mütəxəssis vurğulayır ki, xəstələr özbaşına dərman qəbul etməməli, dozanı artırmamalı və ya azaltmamalıdırlar. Müalicənin effektivliyi preparatın düzgün dozada, düzgün vaxtda və həkimin tövsiyə etdiyi qaydada qəbul edilməsindən birbaşa asılıdır.

Kardioloqun diqqət çəkdiyi mühüm məqamlardan biri də polipraqmaziya – yəni eyni vaxtda həddindən artıq çox dərmanın təyin edilməsidir. Hər bir dərman preparatı orqanizmdə müəyyən biokimyəvi proseslərə təsir göstərir. Bir neçə preparatın eyni vaxtda qəbulu onların qarşılıqlı təsirinə, əlavə təsirlərin artmasına və bəzi hallarda müalicənin effektivliyinin azalmasına səbəb ola bilər. Buna görə də müasir tibdə mümkün qədər rasional və fərdiləşdirilmiş müalicə prinsiplərinə üstünlük verilir.

Atmosfer təzyiqinin dəyişməsi, güclü külək, yüksək temperatur və rütubət ürək-damar sistemi xəstəlikləri olan insanlarda vəziyyətin pisləşməsinə səbəb ola bilər.

Xüsusilə hipertoniya, aritmiya və ürəyin işemik xəstəliyindən əziyyət çəkən şəxslər hava dəyişikliklərinə daha həssas olurlar. Belə günlərdə qan təzyiqinə nəzarət etmək, dərmanları vaxtında qəbul etmək, günün ən isti saatlarında açıq havada uzun müddət qalmamaq tövsiyə edilir.

Dağlıq ərazilərə səfər edən hipertoniya xəstələrinin isə atmosfer təzyiqindəki dəyişiklikləri nəzərə alaraq öz vəziyyətlərinə daha diqqətlə yanaşmaları vacibdir.

Mütəxəssisin sözlərinə görə, döş sümüyü arxasında yaranan sıxıcı və ya yandırıcı ağrı, ağrının sol qola, çiyinə və ya çənəyə yayılması ciddi xəbərdaredici əlamət hesab olunur və təcili tibbi yardım tələb edir. Bundan başqa, başgicəllənmə, qulaqlarda küy, ürəkdöyünmə, nəfəs darlığı, qəfil halsızlıq və bayılma halları da diqqətdən kənarda qalmamalıdır. Bu əlamətlər bəzən hipertoniya, aritmiya və ya ürək çatışmazlığının ilkin göstəriciləri ola bilər.

S.Qəhrəmanova ürək-damar xəstəliklərinin yaranmasında genetik amillərin də mühüm rol oynadığını bildirib: "Ailədə erkən yaşlarda infarkt, ürək çatışmazlığı və ya digər ürək xəstəlikləri müşahidə olunubsa, həmin şəxslər daha diqqətli olmalı, mütəmadi tibbi müayinələrdən keçməlidirlər". Professor xüsusilə qohum nikahlarının bəzi irsi ürək xəstəliklərinin yayılmasına səbəb ola biləcəyini də diqqətə çatdırıb.

Mütəxəssisin fikrincə, müalicənin uğuru yalnız düzgün seçilmiş preparatdan deyil, həm də xəstənin həkim tövsiyələrinə dəqiq əməl etməsindən asılıdır. Ürək-damar xəstəliklərinin qarşısını almağın ən effektiv yollarından biri də sağlam həyat tərzinə riayət etməkdir. Bunun üçün balanslı qidalanmaq, artıq çəkidən qorunmaq, fiziki aktivliyi artırmaq, siqaret və digər zərərli vərdişlərdən uzaq durmaq, qan təzyiqini və xolesterin səviyyəsini mütəmadi nəzarətdə saxlamaq lazımdır. Ürək-damar xəstəliklərinin cavanlaşdığı bir dövrdə hər kəs öz sağlamlığına daha məsuliyyətlə yanaşmalı, yaranan ilkin əlamətləri vaxtında qiymətləndirməli və həkim tövsiyələrinə əməl etməlidir.

**Arif MƏMMƏDLİ**

# Hamiləlikdə autoimmun tiroidit: risklər, müalicə və həkim tövsiyəsi

**Səhiyyə Nazirliyinin eksperti, I Mamalıq-ginekologiya kafedrasının dosenti Natəvan Axundova hamiləlikdə autoimmun tiroidit: risklər, müalicə və həkim tövsiyələri barədə geniş açıqlama verib. "Autoimmun tiroidit nədir?" - sualına aydınlıq gətirən mütəxəssis bu xəstəliyin hamiləliyə necə təsir göstərə bilməsindən danışıb.**

Qeyd edib ki, autoimmun tiroidit qalxanabənzər vəzin immun sistemi tərəfindən zədələnməsi ilə xarakterizə olunan xroniki xəstəlikdir: "Bu proses zamanı orqanizm öz vəz hüceyrələrinə qarşı anticisimlər hazırlayır və hormon sintezi tədricən azalır. Qalxanabənzər vəz hormonları maddələr mübadiləsinin tənzimlənməsi və orqanların normal fəaliyyəti üçün həyati əhəmiyyət kəsb edir. Hamiləlik dövründə isə bu hormonlar həm ana orqanizminin yeni vəziyyətə uyğunlaşması, həm də dölün erkən inkişafı üçün xüsusilə vacibdir. Erkən mərhələdə döl tamamilə ana hormonlarından asılı olduğu üçün, hər hansı çatışmazlıq inkişaf prosesinə mənfi təsir göstərə bilər. Bu səbəbdən, cütlüklərin hələ hamiləliyi planlaşdırma mərhələsində mütəxəssisə müraciət etməsi tövsiyə olunur".

Autoimmun tiroiditi olan qadınlarda hamiləliyin planlaşdırılmasının necə təşkil olunmasına toxunan həkimin sözlərinə görə, bu diaqnozu olan qadınlarda hamiləliyin planlaşdırılması, ilk növbədə hormonal vəziyyətin qiymətləndirilməsi ilə başlayır. Həkimlər qalxanabənzər vəzin fəaliyyət göstəricilərinin (TSH, FT4) hamiləlik üçün uyğun səviyyədə olmasını təmin etməyə çalışırlar. Lazım gəldikdə, hormonəvəzedici preparatlarla korreksiya aparılır və nəticələr müəyyən müddət ərzində izlənilir. Bəzi qadınlarda əlavə ginekoloji və metabolik müayinələrin aparılması məqsədəuyğun hesab edilir. Qidalanma rejimi, vitamin ehtiyatları və orqanizmdə mövcud olan digər xroniki xəstəliklər də planlaşdırmaya təsir edən amillərdəndir. Müntəzəm tibbi nəzarət hamiləliyin baş tutma ehtimalını artırır.

N.Axundova onu da vurğulayıb ki, hamiləlik dövründə hormonal və immun sistemdə baş verən dəyişikliklər xəstəliyin gedişinə təsir göstərə bilər. Erkən aylarda metabolik dəyişikliklər simptomların fərqli şəkildə hiss edilməsinə səbəb olur. Bu əlamətlərin bir çoxu normal hamiləlik simptomlarına bənzədiyindən, onları bir-birindən fərqləndirmək çətindir. Ona görə də yalnız klinik əlamətlərə əsaslanaraq qərar vermək düzgün deyil.



Autoimmun tiroiditin hamiləlikdə yarada biləcəyi risklərdən də söz açan mama-ginekoloq bildirib ki, bu zaman ana orqanizmində qan təzyiqi dəyişiklikləri və metabolik problemlər müşahidə oluna, erkən inkişaf mərhələsində hormon çatışmazlığı dölün bəzi funksional sistemlərinin formalaşmasına mənfi təsir göstərə bilər. Bəzi hallarda isə vaxtından əvvəl doğuş və ya körpənin aşağı çəki ilə doğulma riski yüksəlir. Bununla belə, müasir tibbi yanaşmalar bu risklərin əksəriyyətini idarə etməyə imkan verir.

Hamiləlik dövründə qalxanabənzər vəzin fəaliyyətini qiymətləndirmək üçün müəyyən hormon testlərinin (əsasən TSH və sərbəst T4) aparılmasının vacibliyinə diqqət çəkən həkim xatırladıb ki, bu göstəricilər orqanizmin hormon ehtiyacının ödənilib-ödənilmədiyini müəyyənləşdirməyə kömək edir. Bəzi hallarda autoimmun prosesin aktivliyini qiymətləndirmək üçün anticisimlər (Anti-TPO) də yoxlanılır.

Mütəxəssis qeyd edib ki, müalicənin əsas məqsədi ehtiyac olan hormon səviyyəsini normal həddə çatdırmaqdır: "Bunun üçün həkim təyinatı ilə sintetik hormon preparatlarından (məsələn, L-tiroksin) istifadə olunur ki, bunlar da hamiləlik dövründə təhlükəsiz hesab edilir. Əksinə, adekvat terapiya ağırlaşmaların qarşısını almağa kömək edir. Hamiləlik zamanı orqanizmin tələbatı artdığı üçün dozaya fərdi qaydada düzəliş edilə bilər. Dərmanı özbaşına dayandırmaq və ya dozanı dəyişmək ciddi fəsadlara yol aça bilər".

Onun sözlərinə görə, sağlam həyat tərzi müalicənin effektivliyinə müsbət təsir göstərir. Qidalanmada zülal, vitamin və minerralların balansına diqqət yetirilməlidir. Yod tərkibli əlavələr yalnız mütəxəssis tövsiyəsi ilə qəbul edilməlidir. Çünki autoimmun proses zamanı yodun artıqlığı bəzən mənfi təsir göstərə bilər. Stressin azaldılması, kifayət qədər yuxu və yüngül fiziki aktivlik ümumi vəziyyəti dəstəkləyir. Dərmanların hər gün eyni vaxtda (adətən səhər acqarına) qəbulu və digər preparatlarla qəbul intervalına (ən az 4 saat) əməl edilməsi müalicənin effektivliyi üçün vacibdir.

# Uretra darlığından əziyyət çəkən xəstə uğurla əməliyyat olunub



**Urologiya kafedrasının müdiri, Tədris Cərrahiyyə Klinikasının uroloq-cərrahı, professor Rauf Nağıyevin rəhbərliyi ilə həyata keçirilən əməliyyat zamanı xəstənin uretrasında olan darlıq aradan qaldırılıb, eyni zamanda sol tərəfli II-III dərəcəli varikosele də cərrahi yolla müalicə olunub.**

Xəstənin təxminən 6 yaşından etibarən uretra darlığı problemi ilə mübarizə apardığı məlum olub. Bu müddət ərzində sidik kanalının genişləndirilməsi məqsədilə 2-3 dəfə bujlama proseduru icra edilib.

Əməliyyatdan əvvəl aparılan uretroqrafiya müayinəsində arxa uretra nahiyəsində təxminən 2 santimetr uzunluğunda darlıq müəyyən edilib. Müayinə zamanı tam tıxanmanın olmadığı və kontrast maddənin sidik kisəsinə keçdiyi müşahidə olunub.

Xəstədə eyni zamanda sol tərəfli II-III dərəcəli varikosele aşkarlanıb. Hər iki problemin eyni cərrahi müdaxilə zamanı aradan qaldırılması təmin edilib.

**Azərbaycanda tibb təhsilinin, o cümlədən stomatologiya sahəsinin inkişafı istiqamətində mühüm addımlar atılır. Tədris prosesinin yalnız nəzəri biliklərlə məhdudlaşmaması, tələbələrin real klinik mühitdə yetişdirilməsi və müasir texnologiyaların təhsilə inteqrasiyası bu sahədə keyfiyyətin yüksəlməsinə ciddi təsir göstərir. Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikası ölkədə stomatoloji təhsilin əsas praktik mərkəzlərindən biri kimi tanınır.**

**Bunun ən bariz nümunəsi yaxın günlərdə klinikanın nəzdində müasir tələblərə cavab verən Tədris Mərkəzinin açılmasıdır. Mərasimdə iştirak edən rektor, professor Gəray Gəraybəyli burada yaradılmış şəraiti müsbət qiymətləndirərək, kollektivə uğurlar arzulayıb.**

**Reportaj hazırlamaq üçün üz tutduğumuz klinikanın direktoru İmran Ağayev rəhbərik etdiyi müəssisə barədə "Təbib" qəzetinə geniş məlumat verib. Bildirib ki, əvvəlki illərdə Stomatologiya fakültəsinin klinik bazaları şəhərin müxtəlif tibb müəssisələrində yerləşdiyi halda, hazırda Üz-çənə cərrahiyyəsi kafedrası istisna olmaqla, bütün stomatoloji kafedralar bir məkanda cəmlənib.**



# Həm öyrədir, həm də müalicə edirlər

## Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikası ölkəmizdə stomatoloji təhsilin əsas praktik mərkəzlərindən biridir



Onun sözlərinə görə, burada tələbələr stomatologiyaya aid bütün fənləri həm nəzəri, həm də praktik şəkildə mənimsəyirlər. Eyni zamanda rezidentlər də tədris prosesinə cəlb olunur, müasir avadanlıqlarla təchiz edilmiş Tədris Mərkəzində ilkin praktik bacarıqlar qazanırlar.

Direktor qeyd edib ki, tələbələr xəstə ilə işləməzdən əvvəl xüsusi modellər və fantomlar üzərində təlim keçirlər. Fantomlar insanın ağız boşluğunun və çənə sisteminin reallığa yaxın modelləri olduğundan, gələcək stomatoloqlar zəruri praktik vərdişlərə yiyələnirlər.

İ.Ağayev bildirib ki, klinikada stomatoloji xidmətlərin bütün istiqamətləri üzrə fəaliyyət göstərilir. Burada radioloji müayinələr, rəqəmsal rentgenoqrafiya, üçölçülü kompüter tomoqrafiyası və digər diaqnostik xidmətlər mövcuddur. Tələbələr xəstənin qeydiyyata alınmasından başlamış, diaqnostika, müalicə və sonrakı mərhələlərədək bütün prosesi yaxından izləmək və iştirak etmək imkanına malikdirlər.

Klinikanın nəzdində fəaliyyət göstərən laboratoriyalarda müxtəlif konstruksiyalar və protezlər hazırlanır. Bu proseslər də tədris proqramının bir hissəsi kimi tələbə və rezidentlərin müşahidəsinə və iştirakına açıqdır. Beləliklə, gələcək mütəxəssislər stomatoloji xidmətin bütün mərhələlərini bir məkanda mənimsəyə bilirlər.

**Terapevtik stomatologiya kafedrasının müdiri, dosent Vaqif Həsənov** da bizimlə söhbətində klinikada diş və ağız boşluğu xəstəliklərinin müalicəsi, ortopedik və ortodontik xidmətlər, implantologiya, parodontologiya və digər sahələr üzrə ixtisaslaşmış tibbi yardımın göstərildiyini diqqətə çatdırıb. O cümlədən ambulator stomatoloji cərrahiyyə xidmətləri də burada həyata keçirilir.

Dosent V.Həsənov qeyd edib ki, ağız və diş sağlamlığı yalnız tibbi deyil, həm də sosial əhəmiyyət daşıyan sahələrdən biridir. Bu mənada, stomatoloji xidmətlər ailə büdcəsinə təsir göstərən mühüm xərclər sırasında yer aldığından, erkən yaşlardan maarifləndirmə işlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir.

Kafedra müdiri son illər klinikanın maddi-texniki bazasının əhəmiyyətli dərəcədə



yeniləndiyini bildirib. Onun sözlərinə görə, rəhbərliyin dəstəyi ilə klinikaya 15 ədəd müasir stomatoloji qurğu gətirilib və istifadəyə verilib. Yeni avadanlıqlar tələbə və rezidentlərin praktik hazırlığının gücləndirilməsinə, həmçinin pasiyentlərə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına imkan yaradıb.

**Həkim-stomatoloq İlqar Məmmədov** isə klinikaya müraciət



edən xəstələr arasında ən çox rast gələnən problemlərin kariyes və onun ağırlaşmaları, eləcə də periodontit halları olduğunu söyləyib. Qeyd edib ki, vaxtında və düzgün aparılmayan müalicələr nəticəsində dişlərdə ciddi fəsadlar yarana bilir. Bununla yanaşı, müasir texnologiyalar və yeni müalicə metodları sayəsində əvvəllər çəkilməsi qaçılmaz hesab olunan dişlərin böyük əksəriyyətini artıq müalicə etmək və qoruyub saxlamaq mümkündür.

Həkim bildirib ki, klinikada sinus-liftinq, kök ucunun rezeksiyası, sümük köçürülməsi və digər mürəkkəb cərrahi əməliyyatlar da uğurla icra olunur. Xüsusilə implantoloji müalicələr zamanı sümük çatışmazlığı olan xəstələr üçün müasir rekonstruktiv üsullardan istifadə edilir.

Klinikanın digər **həkim-stomatoloqu Fidan Hacızadənin** sözlərinə görə, son illər stomatologiya sahəsində tətbiq olunan müasir texnologiyalar həm həkimlərin işini asanlaşdırıb, həm də müalicənin keyfiyyətini əhəmiyyətli dərəcədə artırıb.

2009-cu ildən klinikada fəaliyyət göstərdiyini deyən həkim qeyd edib ki, xüsusilə dişlərin kanal müalicəsində istifadə olunan yeni cihazlar əvvəlki illərlə müqayisədə iş prosesini xeyli sürətləndirib.

F.Hacızadə söyləyib ki, diş daşı və ərpə yalnız estetik problem kimi yanaşmaq düzgün deyil, bu həm də diş əti və sümük toxumalarının sağlamlığı üçün ciddi təhlükə yaradır. Onun sözlərinə görə, vaxtında təmizlənməyən diş daşları diş əti iltihabına səbəb olur, nəticədə dişi sümüyə bağlayan toxumalar zədələnir və zamanla dişlərin laxlamasına, hətta itirilməsinə gətirib çıxara bilir.

Biz klinikada olduğumuz zaman F.Hacızadə növbəti pasiyentin müayinəsini aparırdı. Məlum oldu ki, xəstə gecə saatlarında yaranan şiddətli diş ağrıları səbəbindən klinikaya müraciət edib. Müayinə zamanı rentgen görüntüsü əldə olunub və pasiyentə pulpit diaqnozu qoyulub.

Klinikaya səfərimiz zamanı rezidentlərlə də həmsöhbət olduq. Ortodontiya ixtisası üzrə təhsil alan **Nuray Məmmədova** bildirib ki, rezidentura dövrü gələcək həkimlərin formalaşmasında mühüm mərhələdir. Ona görə də klinikada təcrübəli həkim və müəllimlərlə birgə çalışmaq onların peşəkar inkişafına əhəmiyyətli töhfə verir. Gənc mütəxəssislər yalnız tibbi prosedurları deyil, həm də pasiyentlərlə düzgün ünsiyyət qurmağı, etik davranış qaydalarını və həkim-pasiyent münasibətlərinin incəliklərini öyrənirlər.



**Tədris Mərkəzinin rəhbəri, rezident Mikayıl Kamalov** da nəzərə



çatdırıb ki, burada tələbə və rezidentlərin praktik bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir: "Tədris prosesində tələbələr və rezidentlər öz pasiyentləri ilə mərkəzə müraciət edə bilirlər. Onlar müvafiq nəzarət altında müalicə prosesində iştirak edir, təcrübəli müəllimlərin rəhbərliyi ilə praktik bacarıqlarını yüksəldirlər".

**Ortodontiya ixtisası üzrə 3-cü kurs rezidenti Mustafa Altayavi**



bildirib ki, klinikada rezidentlərin nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirməsi üçün geniş imkanlar yaradılıb. Belə ki, klinikada rezidentlər üçün xüsusi iş otaqları ayrılıb və onlar burada pasiyent qəbulu apararaq praktik təcrübə qazanırlar. Rezidentura müddətində ortodontik müalicənin bütün mərhələləri ilə yaxından tanış olmaq, müxtəlif klinik halların idarə edilməsini öyrənmək və pasiyentlərlə ünsiyyət bacarıqlarını təkmilləşdirmək mümkün olur.

**Stomatologiya fakültəsinin 3-cü kurs tələbəsi Əhəd Qaralı**



isə klinikada təşkil olunan praktik məşğələlərin faydasından bəhs edib. Bildirib ki, klinikada stomatologiyanın müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən mütəxəssislərlə işləmək gələcək ixtisas seçimi baxımından da böyük əhəmiyyət daşıyır. Bu, tələbələrə ortodontiya, ortopediya, endodontiya və digər sahələr üzrə bilik və bacarıqlarını inkişaf etdirmək imkanı verir.

Sonda deyə bilərik ki, universitetimizin Tədris Stomatoloji Klinikasında həyata keçirilən tədris modeli müasir tibb təhsilinin tələblərinə uyğun şəkildə formalaşdırılıb. Burada nəzəri biliklərlə praktikanın vəhdəti təmin olunur, tələbə və rezidentlər real klinik mühitdə yetişir. Məqsəd isə gələcək stomatoloqların hərtərəfli hazırlanması, həmçinin ölkədə stomatoloji xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsidir.

**Qabil ABDULLAYEV**

# Mürəkkəb açıq ürək əməliyyatı həyata keçirilib

**Tədris Cərrahiyyə Klinikasının kardiocərrahı Mirəli Məcidov və komandasının iştirakı ilə mürəkkəb açıq ürək əməliyyatı uğurla həyata keçirilib.**

M.Məcidovun sözlərinə görə, pasiyent klinikaya uzun müddətdir davam edən təngnəfəslik, döş qəfəsində ağrılar, fiziki yüklənmə zamanı tez yorulma və ürək çatışmazlığı əlamətləri ilə müraciət edib. Aparılan klinik, laborator və instrumental müayinələr, o cümlədən exokardioqrafiya və koronar angioqrafiya nəticəsində xəstədə ağır dərəcəli aortal qapaq patologiyası və koronar arteriyaların çoxdamarlı zədələnməsi müəyyən edilib.



Pasiyentin vəziyyətinə görə cərrahi müdaxilənin ən optimal müalicə üsulu olduğu qənaətinə gəlinib. Əməliyyat zamanı süni qan dövranı şəraitində aortal qapağın protezləşdirilməsi və eyni seansda koronar arteriyaların aortokoronar şuntlama əməliyyatı icra olunub.

Əməliyyat plan üzrə, ağırlaşma olmadan başa çatdırılıb. Erkən postoperativ dövrdə pasiyentin hemodinamik göstəriciləri stabil olub, ürəyin nasos funksiyası qənaətbəxş qiymətləndirilib.



**Oftalmologiya kafedrasının dosenti, tibb elmləri doktoru Tural Qəlbinur və həmkarları regmatogen retinal qopmanın cərrahi müalicəsində istifadə olunan qaz və silikon yağı tamponadalarının nəticələrini müqayisəli şəkildə araşdırıblar.**

**Bu araşdırmanın nəticələri yüksək impakt faktorlu, "Web of Science" bazasında Q1 kvartilində yer alan beynəlxalq elmi jurnalda dərc olunub.**

# Əməkdaşımızın məqaləsi yüksək impakt faktorlu jurnalda

Tədqiqatın nəticələri göstərib ki, qaz tamponadasının tətbiqi daha yaxşı görmə nəticələri və göz daxili təzyiqin daha az yüksəlməsi ilə əlaqəlidir. Silikon yağı tamponadasının isə, əsasən daha mürəkkəb retinal qopma hallarında tətbiq edildiyi müəyyən olunub.

Aparılan araşdırma regmatogen retinal qopmanın cərrahi müalicəsində tamponada seçiminin xəstənin klinik vəziyyətinə uyğun fərdiləşdirilməsinin əhəmiyyətini bir daha ortaya qoyur.

T.Qəlbinurun müəllifi olduğu məqalənin yüksək impakt faktorlu jurnalda nəşr olunması universitetimizin beynəlxalq elmi arenadakı mövqeyinin və tədqiqat fəaliyyətinin növbəti göstəricisidir.

# Nəhəng mioma tam şəkildə xaric edilib

I Mamalıq və ginekologiya kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının ginekoloqu Nigar Abbasova hamiləliyin gedişatını ciddi risk altına alan nəhəng uşaqlıq mioması ilə müraciət etmiş pasiyent üzərində mürəkkəb cərrahi əməliyyat icra edib. Pasiyentdə aşkarlanan iri ölçülü mioma hamiləlik müddətində nekrozlaşma, davamlı ağrılar, erkən doğuş riski və təkrar stasionar müalicə tələb edən ağırlaşmalarla müşayiət olunurdu. Ana və dölün vəziyyəti ətraflı qiymətləndirildikdən sonra multidisiplinar yanaşma əsasında cərrahi müdaxilə qərarı verilib.

Əməliyyat zamanı sağlam körpə uğurla dünyaya gətirilib. Daha sonra uşaqlığın qorunması prinsipi əsasında nəhəng mioma tam şəkildə xaric edilib. Cərrahi müdaxilə ağırlaşmasız başa çatıb.



# Təbii bioresurslardan innovativ sağlamlıq məhsullarına:

## Rəqəmsal texnologiyalar və süni intellektin yaratdığı yeni imkanlar



**Azərbaycan zəngin təbii sərvətləri və biomüxtəlifliyi ilə seçilən ölkələrdən biridir. Lakin bu sərvətlərin əsl dəyəri yalnız onların mövcudluğu ilə deyil, elm və innovativ texnologiyalar vasitəsilə insan sağlamlığına xidmət edən yüksək əlavə dəyərli məhsullara çevrilməsi ilə ölçülür.**

Bu gün rəqəmsal texnologiyalar, süni intellekt, biotexnologiya, nanotexnologiyalar və kompüter modelləşdirilməsi əczaçılıq və kosmetologiyada yeni inkişaf mərhələsi yaradaraq təbii bioresursların potensialından daha səmərəli istifadə edilməsinə geniş imkanlar açır. Bu yanaşma BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (SDGs), xüsusilə sağlamlığın qorunması, innovasiya və davamlı inkişaf istiqamətlərinin həyata keçirilməsinə də töhfə verir.

Azərbaycanın zəngin flora və faunası, min illərdir xalq təbabətində istifadə olunan dərman bitkiləri, arıçılıq məhsulları, eləcə də heyvan mənşəli bioresurslar, xüsusilə maral pantası mənşəli biomateriallar bioaktiv maddələr baxımından böyük elmi və praktik potensiala malikdir. Bu bioresurslar həm fitokimya (phytochemistry), həm də müasir biotexnologiya baxımından gələcəyin innovativ dərman vasitələrinin, tibbi təyinatlı məhsulların və kosmetik vasitələrin yaradılması üçün mühüm elmi baza hesab olunur.

Lakin təbii mənşəli bioaktiv maddələrin praktik tətbiqində müəyyən çətinliklər mövcuddur. Onların bir hissəsi xarici mühitin təsiri altında sabitliyini itirir, bəziləri isə orqanizm tərəfindən kifayət qədər mənimsənilmir. Müasir dərman daşıyıcı sistemləri (Drug Delivery Systems) bu problemlərin həllinə yönəlmiş ən perspektivli yanaşmalardan biridir. Nanoölçülü sistemlər bioaktiv maddələri xarici təsirlərdən qoruyur, onların sabitliyini artırır, təsirin daha uzunmüddətli olmasına və aktiv maddələrin hədəf nahiyəyə daha dəqiq çatdırılmasına imkan yaradır. Bu isə daha yüksək effektivlik, təhlükəsizlik və müalicə nəticələrinin yaxşılaşmasına şərait yaradır.

Bu prosesdə rəqəmsal texnologiyalar və süni intellekt də mühüm rol oynayır. Böyük həcmli elmi məlumatların təhlili, kompüter modelləşdirilməsi və proqnozlaşdırma metodları perspektivli bioaktiv maddələrin və onların kombinasiyalarının daha qısa müddətdə müəyyən edilməsinə imkan verir, elmi tədqiqat və inkişaf (Research and Development – R&D) prosesini sürətləndirir və innovativ məhsulların hazırlanmasının səmərəliliyini artırır.

Azərbaycan Tibb Universiteti bu istiqamətdə ölkəmizin aparıcı elm və innovasiya mərkəzlərindən biri kimi fəaliyyətini davam etdirir. Universitetin Elmi Araşdırmalar Mərkəzində yaradılmış müasir elmi infrastruktur və yüksək texnologiyalı analitik avadanlıqlar, o cümlədən Transmission Electron Microscope (TEM) nanoölçülü sistemlərin öyrənilməsi və xarakterizasiyası üçün geniş imkanlar yaradır. Bununla yanaşı, fəaliyyətə başlayan Data Analitikası və Süni İntellekt Laboratoriyası rəqəmsal texnologiyaların biotibb və əczaçılıq sahəsinə inteqrasiyasını gücləndirərək innovativ tədqiqatların yeni mərhələyə yüksəlməsinə xidmət edir. Bu infrastruktur gələcəkdə texnologiya transferi (Technology transfer) və elmi nəticələrin praktik tətbiqi üçün də mühüm zəmin yaradır.

Bu elmi mühitdə Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasında 2020-ci ildən etibarən Azərbaycanın təbii bioresursları əsasında innovativ dərman daşıyıcı sistemləri, nanoəczaçılıq və nanokosmetika istiqamətində məqsədyönlü elmi tədqiqatlar aparılır.

2022-ci ildən başlayaraq Türkiyənin müxtəlif universitetləri ilə qurulan beynəlxalq elmi əməkdaşlıq çərçivəsində nanotexnologiya sahəsində tanınmış alimlərlə birgə araşdırmalar həyata keçirilib, əldə olunan nəticələr yüksək reytinqli beynəlxalq elmi jurnallarda dərc edilib, innovativ həllər isə Avrasiya patentləri (EAPO № 047018, № 053584, № 053810 və s.) ilə qorunub. Hazırda bu əməkdaşlıq uğurla davam etdirilir və yeni ortaq layihələr həyata keçirilir.

Müasir dövrdə təbii sərvətlərin dəyəri onların xammal kimi istifadəsi ilə deyil, yüksək texnologiyalar vasitəsilə innovativ məhsullara çevrilməsi ilə müəyyən olunur. Bu yanaşma yalnız yeni dərman və kosmetik vasitələrin yaradılmasına deyil, həm də yerli istehsalın inkişafına, ixrac potensialının artırılmasına, ölkənin innovasiya ekosisteminin güclənməsinə, universitet-sənaye əməkdaşlığının genişlənməsinə və elmi nailiyyətlərin iqtisadi dəyərə çevrilməsinə mühüm töhfə verir.

**Sevil MEHRALIYEVA**
*Dosent, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının doktorantı*

**Patologiya kafedrasında tədris olunan patologiya fənni tələbələrdə xəstəliklərin yaranma səbəbləri, inkişaf mexanizmləri, toxuma və orqanlarda baş verən morfoloji dəyişikliklər haqqında fundamental biliklər formalaşdırır. Patologiya gələcək həkimlərin düzgün klinik düşüncə tərzinin, diaqnostik yanaşmasının və xəstəliklərin mahiyyətini dərk etməsinin əsasını təşkil edən fundamental tibb elmlərindən biridir.**

# Süni intellekt patoloqun rəqibi deyil, köməkçisidir



Müasir dövrdə tibdə baş verən texnoloji yeniliklər patologiya sahəsindən də yan keçmir. Süni intellekt texnologiyalarının tətbiqi patoloqun gündəlik fəaliyyətini daha səmərəli edir, diaqnostik prosesin sürətini və dəqiqliyini artırır. Eyni zamanda bu texnologiyalar tələbələr üçün patologiyanın öyrənilməsini daha maraqlı, interaktiv və praktik yönümlü edir. Patologiya kafedrasında tədris olunan patologiya fənni tələbələrdə xəstəliklərin yaranma səbəbləri, inkişaf mexanizmləri, toxuma və orqanlarda baş verən morfoloji dəyişikliklər haqqında fundamental biliklər formalaşdırır. Patologiya gələcək həkimlərin düzgün klinik düşüncə tərzinin, diaqnostik yanaşmasının və xəstəliklərin mahiyyətini dərk etməsinin əsasını təşkil edən fundamental tibb elmlərindən biridir.

Müasir dövrdə tibdə baş verən texnoloji yeniliklər patologiya sahəsindən də yan keçmir. Süni intellekt texnologiyalarının tətbiqi patoloqun gündəlik fəaliyyətini daha səmərəli edir, diaqnostik prosesin sürətini və dəqiqliyini artırır. Eyni zamanda bu texnologiyalar tələbələr üçün patologiyanın öyrənilməsini daha maraqlı, interaktiv və praktik yönümlü edir.

Süni intellekt rəqəmsallaşdırılmış histopatoloji preparatları qısa müddətdə analiz edərək patoloqa əlavə dəstək göstərir. O, şiş hüceyrələrinin aşkarlanması, iltihabi dəyişikliklərin qiymətləndirilməsi, metastazların müəyyən edilməsi və immunohistokimyəvi boyanmaların hesablanması kimi proseslərdə yüksək dəqiqliklə işləyə bilir.

Bu texnologiya xüsusilə onkoloji xəstəliklərin erkən diaqnostikasında mühüm rol oynayır. Daha sürətli analiz xəstənin vaxtında müalicəyə başlamasına imkan yaradır.

Bəs süni intellekt patoloqu əvəz edəcəkmi? Bu suala cavab qəti şəkildə "xeyr"dir. Süni intellekt qərar qəbul etmir. O yalnız məlumatları analiz edir və patoloqa əlavə informasiya təqdim edir. Xəstənin klinik vəziyyətini, laborator göstəricilərini, radioloji müayinələrini və digər tibbi məlumatları birlikdə qiymətləndirərək yekun diaqnozu qoyan yenə də həkim-patoloqdur. Başqa sözlə, süni intellekt patoloqun rəqibi deyil, onun etibarlı köməkçisidir.

Bugünkü tibb tələbələri yalnız klassik patologiyanı deyil, eyni zamanda müasir texnologiyaları da mənimsəməlidir. Süni intellektdən düzgün istifadə bacarığı gələcəkdə daha dəqiq diaqnostika aparmağa, elmi tədqiqatlar həyata keçirməyə və beynəlxalq tibbi mühitdə uğur qazanmağa kömək edəcək. Texnologiyanı bilmək həkimi əvəz etmir, əksinə, onun peşəkarlığını daha da gücləndirir.

Dünyanın aparıcı tibb mərkəzlərində süni intellekt artıq patologiyanın ayrılmaz hissəsinə çevrilməkdədir. Bu texnologiyaların tibb təhsilinə inteqrasiyası tələbələrin müasir bilik və bacarıqlarla yetişməsinə, gələcək peşə fəaliyyətinə daha yaxşı hazırlanmasına imkan yaradır.

Azərbaycan tibb təhsili də bu yeniliklərdən faydalanaraq gələcəyin həkimlərini qlobal səhiyyənin tələblərinə uyğun hazırlamaq istiqamətində inkişaf edir.

Beləliklə, patologiyanın gələcəyi insan zəkası ilə süni intellektin əməkdaşlığı üzərində qurulur. Bu əməkdaşlıq isə həm xəstələrin daha keyfiyyətli tibbi xidmət almasına, həm də gələcəyin həkimlərinin daha güclü mütəxəssis kimi yetişməsinə xidmət edəcək.

**Arzu İBİŞOVA**
*Patologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru*

# Hərbi təbabətin tədqiqat sahələri

## Gələcəkdə tibbin yeni yaranacaq sahələri də hərbi təbabətin tədqiqat istiqamətlərinə daxil olacaq

**Hərbi təbabət tibb və hərbi elmlərin kəsişdiyi bir sahədir. Azərbaycanda hərbi təbabət sahəsinin yaranması XX əsrin əvvəllərinə gedib çıxır. Yaralıların vaxtında təxliyəsi, səhra şəraitində tibbi yardımın təşkili və şəxsi heyətin sağlamlığının qorunması ordu quruculuğunun ayrılmaz hissəsi hesab edilir.**



**Saleh ƏHMƏDOV**

Hərbi tibb fakültəsinin əməkdaşı, milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı

Müharibələrin nəticələrinin təhlili göstərir ki, peşəkar hərbi təbabət sistemi olmadan uzunmüddətli hərbi əməliyyatları effektiv şəkildə idarə etmək mümkün deyil. Bu gün hərbi təbabət artıq kompleks bir elm sahəsidir. O yalnız müalicəni deyil, həm də profilaktikanı, tibbi təminatı, sanitariya-epidemioloji təhlükəsizliyi və fövqəladə hallarda tibbi idarəetməni özündə birləşdirib, multidissiplinar elm sahəsi kimi inkişaf edir.

"Hərbi təbabət" ixtisası üzrə aparılan elmi-tədqiqatlar bir neçə əsas istiqaməti əhatə edir. Hərbi təbabətin əsas tədqiqat istiqamətləri hərbi terapiya, hərbi cərrahiyyə, hərbi gigiyena, hərbi epidemiologiya, hərbi toksikologiya və radiologiya, həmçinin tibb xidmətinin təşkili və taktikasından ibarətdir.

### Hərbi terapiya: şəxsi heyətin sağlamlığının qorunması

Hərbi terapiya sülh, səfərbərlik və müharibə dövründə hərbi qulluqçular arasında inkişaf edən daxili xəstəliklərin etiologiyası, patogenezi, klinik xüsusiyyətləri, diaqnostikası, müalicəsi və profilaktikası ilə məşğul olur. Əsas məqsəd şəxsi heyətin sağlamlığını qorumaq və onların döyüş qabiliyyətini yüksək səviyyədə saxlamaqdır.

### Hərbi cərrahiyyə: döyüş travmalarının müalicəsi

Hərbi cərrahiyyə müdafiə, həmlə, yürüş və hücum şəraitində yaranan yaralanma və travmaların öyrənilməsi, onların müalicəsi və cərrahi yardımın təşkili ilə məşğul olur. Bu sahə hərbi cərrahiyyənin tarixi inkişafını, elmi-nəzəri və metodoloji əsaslarını araşdırır, müasir dövrdə hərbi-cərrahi fəaliyyətin əsas vəzifələrini müəyyənləşdirir. Müasir klinik-diaqnostik və müalicə üsullarının tətbiqi də bu istiqamətin əsas tədqiqat sahələrinə daxildir.

### Hərbi gigiyena və sanitariya təminatı

Hərbi gigiyena sülh, səfərbərlik və müharibə şəraitində hərbi qulluqçuların (çağırışçıların, gənc əsgərlərin) sağlamlığına təsir edən fiziki, bioloji və sosial amillərin öyrənilməsi, onların yaratdığı səbəb-nəticə əlaqələrinin araşdırılması və profilaktik tədbirlərin hazırlanması ilə məşğul olur. Məqsəd şəxsi heyətin sağlamlığını qorumaq, xidmət qabiliyyətini yüksək səviyyədə saxlamaq və orduda sağlam sanitariya mühiti yaratmaqdır.

### Hərbi epidemiologiya və infeksion təhlükəsizlik

Hərbi epidemiologiya hərbi təbabətin mühüm sahələrindən biri olub, hərbi kollektivlərdə yoluxucu və qeyri-yoluxucu xəstəliklərin yaranması, yayılması və profilaktikasını öyrənir. Bu sahədə epidemik prosesin hərəkətverici qüvvələri, xəstəliklərin yayılma qanunauyğunluqları, biostatistik təhlil üsulları və xəstəliklərin qarşısının alınması tədbirləri tədqiq edilir. Məqsəd şəxsi heyətin sağlamlığını qorumaq və orduda sanitariya-epidemioloji təhlükəsizliyi tam şəkildə təmin etməkdir.

### Hərbi toksikologiya, radiologiya və tibbi mühafizə

Hərbi toksikologiya, radiologiya və tibbi mühafizə hərbi təbabətin mühüm sahələrindən biri olub, kimyəvi, nüvə, bakterioloji və digər kütləvi qırğın silahlarının insan orqanizminə təsirini öyrənir. Bu sahədə radioloji və toksiki amillərin orqanizmdə yaratdığı zədələnmə mexanizmləri, onların bioloji təsiri və sağlamlığa üçün törətdiyi ağır nəticələr tədqiq edilir. Məqsəd belə təhlükələrin qarşısının alınması, zərərçəkənlərə vaxtında tibbi yardım göstərilməsi və şəxsi heyətin etibarlı şəkildə qorunmasıdır.

### Tibb xidmətinin təşkili və taktikası: tibbi təminatın idarə olunması

Tibb xidmətinin təşkili və taktikası (TXTT) orduda tibbi təminat sisteminin səmərəli idarə olunmasını və döyüş şəraitində tibbi yardımın düzgün təşkilini öyrənir. Bu sahə yaralıların və xəstələrin tibbi evakuasiyasının müxtəlif mərhələlərini, müalicə prosesinin təşkilini, tibbi triajı, eləcə də evakuasiyanın planlaşdırılmasını əhatə edir. TXTT tibb xidmətinin sülh, səfərbərlik və müharibə şəraitində idarə edilmə prinsiplərinin elmi əsaslarını öyrənir.

Müasir müharibələr yüksək manevr qabiliyyəti tələb etdiyindən tibbi xidmət də sürətli və çevik olmalıdır. Döyüş şəraitində tibbi xidmətin düzgün təşkili minlərlə insanın həyatını xilas edə biləcəyindən, tibbi təxliyənin sürətləndirilməsi, mobil hərbi hospital sistemlərinin inkişafı, yaralıların döyüş qabiliyyətinin bərpası, müxtəlif coğrafi döyüş şəraitlərində hərbi hissələrin və müalicə müəssisələrinin yüksək manevr qabiliyyətinin təmin edilməsi bu istiqamətin əsas tədqiqat prioritetləridir.

### Süni intellekt və hərbi tibbin gələcəyi

TXTT sahəsində həmçinin tibbi statistikanın inkişaf etdirilməsi, xəstələnmə hallarının proqnozlaşdırılması və onların məişət, sosial və təbii amillərlə əlaqəsinin araşdırılması mühüm əhəmiyyət daşıyır. Fövqəladə hallar, təbii fəlakətlər (zəlzələ, daşqın, sel və s.) və regional hərbi münaqişələr zamanı tibbi yardımın göstərilməsində süni intellekt texnologiyaları və yeni metodlardan istifadə imkanları da bu sahənin əsas istiqamətlərindən biri sayılır. Bu tədqiqatlar orduda sağlamlığın qorunmasına, tibbi xidmətin daha effektiv təşkilinə və hərbi qulluqçular arasında ictimai sağlamlığın elmi əsaslarının möhkəmləndirilməsinə xidmət edir.

Gələcəkdə tibbin yeni yaranacaq sahələri də hərbi təbabətin tədqiqat istiqamətlərinə daxil olacaq. Bununla yanaşı, yeni tibbi ixtisasların və tədqiqat istiqamətlərinin yaranması hərbi təbabətin daha da inkişaf etməsinə və müasir müharibələrin çağırışlarına uyğunlaşmasına imkan verəcək.

**Son illərdə dünyada baş verən təbii fəlakətlər, zəlzələlər, iqlim dəyişiklikləri, texnogen qəzalar, pandemiyalar və digər fövqəladə hallar göstərir ki, fəlakət təbabəti müasir səhiyyənin ən sürətlə inkişaf edən istiqamətlərindən birinə çevrilib. Artıq bu sahə yalnız fövqəladə hadisələr zamanı tibbi yardımın göstərilməsi ilə məhdudlaşmır, eyni zamanda fəlakət riskinin azaldılması, səhiyyə sistemlərinin dayanıqlığının artırılması, əhalinin sağlamlığının qorunması və gələcək risklərin proqnozlaşdırılması kimi mühüm vəzifələri əhatə edir.**

# Fəlakət təbabəti: müasir dövrün çağırışları və Azərbaycanın elmi yanaşması



**Leyla ƏFƏNDİYEVA**

I Daxili xəstəliklər kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru

Müasir yanaşmaya əsasən, fövqəladə hallara hazırlıq və fövqəladə hallara operativ cavab səhiyyə sistemlərinin ayrılmaz hissəsini təşkil edir. Dünyanın bir çox ölkəsində erkən xəbərdarlıq sistemləri, risklərin qiymətləndirilməsi və elmi əsaslandırılmış profilaktik tədbirlər artıq dövlət səhiyyə siyasətinin prioritet istiqamətləri hesab olunur. Bu yanaşma BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə də tam uzlaşır. Xüsusilə DİM 3 – Sağlam həyatın təmin edilməsi və rifahın yaxşılaşdırılması, DİM 11 – Dayanıqlı şəhərlər və icmalar, DİM 13 – İqlim dəyişikliyi ilə mübarizə və DİM 9 – Sənaye, innovasiya və infrastruktur istiqamətləri müasir "Disaster medicine" konsepsiyasının əsas prioritetlərini əks etdirir.

Azərbaycan da bu sahənin xüsusi aktuallıq daşıdığı ölkələrdən biridir. Respublikamız Alp–Himalay seysmik qurşağında yerləşdiyindən yüksək seysmik aktivlik müşahidə olunan region hesab edilir. Bununla yanaşı, sürətli urbanizasiya, şəhərlərin inkişafı və infrastrukturun genişlənməsi şəhər dayanıqlılığı məsələlərini daha da aktuallaşdırır. Bu səbəbdən ölkəmizdə "Disaster risk reduction" strategiyalarının elmi əsaslarla inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Müasir elmi araşdırmalar göstərir ki, zəlzələlərin təsiri yalnız travmalar və fövqəladə tibbi yardım ehtiyacı ilə məhdudlaşmır. Təbii fəlakətlərdən sonra miokard infarktı, insult, arterial hipertenziya, ürək ritm pozğunluqları və digər ürək-damar xəstəliklərinin tezliyinin artması müşahidə oluna bilər. Bu dəyişikliklər psixoemosional stress, neyrohumoral aktivləşmə, həyat tərzinin dəyişməsi və tibbi xidmətlərə çıxışın müvəqqəti məhdudlaşması ilə əlaqələndirilir.

Bu istiqamətdə Azərbaycan alimlərinin fəaliyyəti xüsusi maraq doğurur. Azərbaycan Tibb Universiteti və Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzi ilə birlikdə həyata keçirilmiş elmi tədqiqat ölkəmizdə bu sahədə aparılmış ilk və hazırda yeganə kompleks araşdırmalardan biridir. Tədqiqatın nəticələri beynəlxalq elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmış və "Frontiers in Disaster and Emergency Medicine" jurnalında nəşr üçün qəbul edilmişdir.

Aparılmış tədqiqatın əsas elmi yeniliyi ondan ibarətdir ki, burada yalnız güclü və dağıdıcı zəlzələlərin deyil, həm də uzunmüddətli, aşağı maqnitudalı seysmik aktivliyin ürək-damar xəstəliklərinə mümkün təsiri öyrənilib. Bu yanaşma Azərbaycanı bu istiqamətdə tədqiqat aparan ilk ölkələrdən biri kimi fərqləndirir və "Disaster medicine" sahəsində yeni elmi baxışın formalaşmasına töhfə verir.

Tədqiqat çərçivəsində Azərbaycanın müxtəlif seysmik regionlarında geofiziki proseslərlə ürək-damar xəstəlikləri arasında mümkün əlaqələr qiymətləndirilib, eyni zamanda yüksək risk qrupuna daxil olan xəstələrdə ikinci dərəcəli profilaktikanın effektivliyi araşdırılıb.

Müasir dövrdə "Disaster medicine" sürətlə rəqəmsallaşan elm sahəsinə çevrilir. Süni intellekt texnologiyaları, telemedisin imkanları, proqnostik modelləşdirmə üsulları və erkən xəbərdarlıq sistemləri gələcəkdə fərdi risklərin qiymətləndirilməsində, fövqəladə hallara hazırlığın gücləndirilməsində və səhiyyə sistemlərinin dayanıqlığının artırılmasında mühüm rol oynayacaq.

Universitetimizdə aparılan bu tədqiqat ölkəmizdə "Disaster medicine" sahəsində yeni elmi istiqamətin formalaşdığını göstərir. Bu cür araşdırmalar gələcəkdə region üzrə elmi əsaslandırılmış profilaktik strategiyaların hazırlanmasına, səhiyyə sistemlərinin dayanıqlığının artırılmasına və əhalinin sağlamlığının daha effektiv qorunmasına mühüm töhfə verə bilər.

# İnfeksiyaların profilaktikası və nəzarət tədbirləri fundamental əhəmiyyət daşıyır

## Tarixi inkişaf, müasir çağırışlar və sübutlara əsaslanan İPN strategiyaları

**İnfeksiyaların profilaktikası anlayışının dərin tarixi kökləri var. Mikroorqanizmlər kəşf edilməzdən çox əvvəl səhiyyə işçiləri müşahidə etmişdilər ki, təmizlik və izolyasiya xəstəliklərin yayılmasını azalda bilər. Lakin yalnız XIX əsrdə bu yanaşmalar elmi sübutlarla dəstəklənməyə başladı.**




### İnfeksiya Nəzarətinin Tarixi İnkişafı və Elmi Əsasları

İgnaz Semmelweis tərəfindən aparılan tədqiqatlar göstərdi ki, düzgün əl gigiyenası xəstəxanalarda ana ölümünü əhəmiyyətli dərəcədə azalda bilər. Eyni dövrdə Florence Nightingale müharibə şəraitində sanitariya, gigiyena və düzgün ventilyasiyanın əhəmiyyətini vurğulayaraq pasiyentin yaxşılaşmasına nail olmuşdur. Bu erkən töhfələr müasir infeksiya nəzarəti praktikasının əsasını qoymuşdur. Daha sonra Louis Pasteur və Robert Koch xəstəliklərin mikroorqanizmlər tərəfindən törədildiyini sübut edən nəzəriyyəni formalaşdırmışdır. Bu kəşf tibbi praktikada köklü dəyişikliklərə səbəb olmuş və bu gün də istifadə olunan antiseptik və aseptik texnikaların inkişafına zəmin yaratmışdır.

XX əsrdə səhiyyə sistemlərinin genişlənməsi ilə strukturlaşdırılmış infeksiya nəzarətinə ehtiyac daha da aydın şəkildə ortaya çıxdı. Xəstəxanalar böyüdü, tibbi prosedurlar mürəkkəbləşdi və invaziv cihazlardan istifadə artdı. Antibiotiklər infeksiyaların müalicəsində güclü vasitə olsa da, onların həddindən artıq istifadəsi antimikrob rezistentlik kimi yeni problemlərə səbəb oldu. Bu dövrdə Ümumdünya Səhiyyə Təşkilatı (World Health Organization) və Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (Centers for Disease Control and Prevention) kimi beynəlxalq qurumların dəstəyi ilə formal İPN proqramları formalaşmağa başladı. Bu təşkilatlar səhiyyə sistemləri üzrə infeksiyanın profilaktikası tədbirlərinin standartlaşdırılmasına kömək edən təlimatlar və tövsiyələr hazırladılar. İnfeksiya göstəricilərini izləmək, alovlanmaları aşkar etmək və profilaktik tədbirlərin effektivliyini qiymətləndirmək üçün epidemioloji nəzarət (surveillance) sistemləri tətbiq olundu. Eyni zamanda, bütün pasiyentlərin potensial olaraq yoluxucu kimi qəbul edilməsini vurğulayan universal ehtiyat tədbirləri konsepsiyası tətbiq edildi ki, bu da səhiyyə işçilərinin təhlükəsizliyini əhəmiyyətli dərəcədə artırdı.

### SXƏİ və AMR: Müasir Səhiyyənin Qlobal Yükü

Müasir dövrdə səhiyyə xidmətləri ilə əlaqəli infeksiyaların (SXƏİ) və antimikrob rezistentliyinin (AMR) yükü və təsiri

İnfeksiyaların Profilaktikası və Nəzarəti (İPN) təhlükəsiz tibbi xidmətin ən mühüm əsaslarından biridir və bütün dünyada keyfiyyətli pasiyent qayğısının vacib komponenti kimi geniş şəkildə qəbul olunur. Müasir səhiyyə sistemlərində xəstəxanalar müxtəlif xəstəliklərə malik, immun sistemi zəifləmiş və invaziv tibbi cihazlardan istifadə olunan pasiyentlərin bir araya gəldiyi mürəkkəb mühitlərdir. Bu isə müvafiq profilaktik tədbirlər görülmədikdə, infeksiyaların asanlıqla yayıla bilməsi üçün şərait yaradır. Müasir dövrdə səhiyyə xidmətləri ilə əlaqəli infeksiyaların (SXƏİ), antimikrob rezistentliyin (AMR), yeni və qayıdan infeksion xəstəliklərin (Meymunçiçəyi, COVİD 19, MERS Cov, Ebola, Denge qızdırması, Candida auris etiologiyalı infeksiyalar və s.) artan yükü tibb müəssisələrində İPN proqramının inkişafını zəruri edir.

SXƏİ-nin xəstələnmə və ölüm göstəricilərinin yüksəlməsi, səhiyyə xərclərinin artmasına səbəb olması mühüm ictimai sağlamlıq problemini təşkil edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, yüksək gəlirli ölkələrdə xəstəxanaya yerləşdirilən pasiyentlərin təxminən 7-10%-i SXƏİ-yə yoluxur, aşağı və orta gəlirli ölkələrdə isə bu göstərici 15%-ə kimi artır. SXƏİ-nin ən çox aşkar olunan növləri süni tənəffüs aparatı ilə əlaqəli pnevmoniyalar, cərrahi sahə infeksiyaları, sidik kateteri ilə əlaqəli sidik yolu infeksiyaları, mərkəzi damar yolu kateteri ilə əlaqəli qan dövranı və dializ proseduru ilə əlaqəli infeksiyalardır. Bu infeksiyalar adətən xəstərdə tibbi cihazların istifadəsi, yaxud invaziv prosedurların icra olunması nəticəsində baş verir. Cihazların istifadəsi nəticəsində əmələ gələn SXƏİ bütün SXƏİ-nin təxminən 40-50%-ni təşkil edir. Əlavə olaraq, cərrahiyyə, dializ və diaqnostik müdaxilələr kimi invaziv tibbi prosedurların nəticəsi olaraq yaranan infeksiyalar bütün SXƏİ-nin təxminən 30-40%-ni təşkil edir.

### SXƏİ-nin Strukturu və Kritik Patogenlər

Hər il Avropa İttifaqı və Avropa İqtisadi Bölgəsində təxminən 3,5 milyon SXƏİ hadisəsi baş verir ki, bu da 90 mindən çox ölümə səbəb olur və təxminən əlillik səbəbindən 2,5 milyon itirilmiş həyat ilinə ekvivalentdir. Bu yük Avropa daxilində qrip və vərəm də daxil olmaqla digər infeksiyaların ümumi yükündən çoxdur. Bundan əlavə, SXƏİ antimikrob rezistent bakteriyalarla baş verən infeksiya hallarının 70%-ni təşkil edir. ÜST-nin yenilənmiş Əsas Prioritet Bakterial Patogenlər Siyahısında (Bacterial Priority Pathogens List-BPPL, 2024) qram-mənfi bakterial patogenlər öz kritik statusunu qoruyub saxlamışdır. Onlardan karbapenem-rezistent Acinetobacter baumannii (CRAB), karbapenem-rezistent Enterobakterialar (CRE), üçüncü nəsil sefalosporinlərə rezistent Enterobakterialar (3GCRE) və rifampisin–rezistent Mikobakterium tuberculosis ən yüksək qiymət alaraq siyahıda kritik prioritet kateqoriyasına daxil edilmişdir

AMR səhiyyə müəssisələrində mikroorqanizmlərin yayılması kimi ciddi bir problem olaraq qalır. O tez inkişaf edən bir təhlükədir. 2019-cu ildə dünya üzrə təxminən 5 milyon ölüm AMR ilə əlaqələndirilmişdir,



**Azər RƏŞİDOV**
Epidemiologiya və biostatistika kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru

1,3 milyonu isə birbaşa AMR-ə aid edilmişdir. Proqnozlara görə, 2050-ci ilə qədər AMR qlobal miqyasda hər il 10 milyon ölümə səbəb ola bilər.

### İPN Tədbirlərinin İqtisadi Səmərəliliyi və Qaydaların Tətbiqi

SXƏİ və AMR-in səhiyyə müəssisələrində yayılması insan sağlamlığına mənfi təsir və iqtisadi itkilər baxımından ölçüyəgəlməz bir yük yaradır. Buna görə də, infeksiyaların və onların yayılmasının qarşısının alınması bu təsirləri azaltmaq və iqtisadi üstünlüklər yaratmaq baxımından böyük potensiala malikdir. Dünya Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (World Bank and Organization for Economic Co-operation and Development, 2018) tərəfindən yayımlanan əsas hesabatlar effektiv İPN tədbirlərinin yüksək investisiya gəliri verdiyini göstərir. Məsələn, səhiyyə müəssisələrində əllərin gigiyenasının uyğunlug göstəricisinin yaxşılaşdırılması hər 1 ABŞ dolların investisiya üçün təxminən 16,5 ABŞ dolları həcmində səhiyyə xərclərinə qənaəti təmin edə bilər. IPN strategiyaları arasında əllərin gigiyenası və ətraf mühitin gigiyenası ən çox qənaət təmin edən müdaxilələr hesab olunur. Bu tədbirlərin birgə tətbiqi AMR infeksiyalarından ölüm riskini 50%-dən çox və uzunmüddətli sağlamlıq fəsadlarını ən azı 40% azalda bilər. Əllərin gigiyenası, antibiotiklərin səmərəli istifadəsinə nəzarət və təkmilləşdirilmiş ətraf mühit gigiyenasını əhatə edən hərtərəfli tədbirlər kompleksi AMR-in səhiyyəyə təsir yükünü 85% azalda və hər il adambaşına 2 avro qənaəti təmin edə bilər.

Beləliklə, sübutlara əsaslanan IPN tədrisi, səhiyyə müəssisələrində infeksion agentlərin ötürülməsinin qarşısını almaq üçün fundamental əhəmiyyət daşıyır. Tədqiqatlar göstərir ki, strukturlaşdırılmış İPN təliminin effektiv tətbiqi səhiyyə xidmətləri ilə əlaqəli infeksiyaların 30-70% azalmasına səbəb ola bilər.

# Arıqlama iynələri yalnız tibbi nəzarət altında faydalı ola bilər

**"Son dövrlərdə arıqlama iynələrinə marağın artması cəmiyyətdə həm tibbi, həm də psixoloji baxımdan müzakirə olunan mövzulardan biridir. İnsanların bu vasitələrə müraciət etməsinin müxtəlif səbəbləri var. Bəziləri sağlamlıq problemləri, artıq çəki ilə əlaqəli risklər və həkim tövsiyəsi ilə bu müalicə üsulunu seçir, digərləri isə özlərini daha rahat və yaxşı hiss etmək istədikləri üçün bu yola üz tuturlar".**

Bu fikirləri ATU-nun Tədris Cərrahiyyə Klinikasının psixoloqu, Bakı Dövlət Universitetinin psixologiya kafedrasının əməkdaşı İlahə Hacıyeva söyləyib. Onun sözlərinə görə, müasir dövrdə xarici görünüşə verilən önəm, sosial media, ideal bədən standartları və cəmiyyətin gözləntiləri kimi faktorlar insanların öz bədənlərinə münasibətinə təsir göstərir: "Xüsusilə qadınlar adətən özlərini müqayisə edir və müəyyən görünüş standartlarına çatmağa çalışırlar. Halbuki, hər insanın bədəni, genetik xüsusiyyətləri və həyat şəraiti fərqlidir".

Psixoloq qeyd edib ki, arıqlama iynələri yalnız tibbi nəzarət altında faydalı ola bilər. Bununla yanaşı, hər bir tibbi müdaxilədə olduğu kimi, burada da mümkün yan təsirlər və fərdi xüsusiyyətlər nəzərə alınmalı, bu qərarlar mütləq həkim məsləhəti ilə həyata keçirilməlidir: "Digər tərəfdən, insanın özünü qəbul etməsi ilə sağlam həyat tərzi arasında ziddiyyət yoxdur.



İnsan həm özünü olduğu kimi sevə, həm də sağlamlığı üçün müəyyən dəyişikliklər etmək istəyə bilər. Əsas məsələ qərarın başqalarının təzyiqi ilə deyil, insanın öz ehtiyacları və sağlamlığı nəzərə alınmaqla verilməsidir".

Arıqlama iynəsindən istifadə edən insanları qınamağın, istifadə etməyən insanları isə tənqid etməyin də doğru olmadığını deyən psixoloq, hər bir insanın seçiminə, sağlamlıq vəziyyətinə və həyat hekayəsinə hörmətlə yanaşmağın vacibliyini vurğulayıb. Qeyd edib ki, psixoloji sağlamlığın əsas şərtlərindən biri də insanın özünə qarşı anlayışlı və mərhəmətli münasibət göstərməsidir.

| | | | | |
|---|---|---|---|---|
| Baş redaktor<br>MƏĞRUR ƏLİYEV | Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.<br>Əlyazmalar geri qaytarılmır | "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır | ÜNVANIMIZ:<br>Mərdanov qardaşları - 98c<br>2-ci mərtəbə,<br>Tel.: 595-24-97<br>tabibqazeti@gmail.com | Lisenziya H - 022633<br>İndeks -0269<br>Sifariş - 0014<br>Sayı 800 |